**Günay Oktay qızı ƏLİYEVA** i.f.d., dos
Azərbaycan Texniki Universiteti
"İqtisadiyyat və statistika" kafedrası
Orchid İD: 0000-0001-8145-6488

**Aydan İlham qızı ASLANZADƏ**
"İqtisadiyyat və statistika" kafedrasının doktorantı
Orchid İD: 0009-0007-1377-4282

# ALİ TƏHSİL SİSTEMİNDƏ BİZNES ƏLAQƏLƏRİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**Xülasə**

Təhsil, bildiyimiz kimi, bir millətin inkişaf mərhələlərində insan resurslarının inkişafı və səlahiyyətlərinin artırılması üçün həyati əhəmiyyət kəsb edir. İstənilən təhsil sistemi menecment, mühəndislik, tibb və s.-ni əhatə edən ali təhsil biliklərin, dəyərlərin ötürülməsində, bacarıqların inkişaf etdirilməsində böyük rol oynayır. Müəssisələr işçi qüvvəsinə olan ehtiyaclarını ödəmək, əmək bazarında sabitliyi və inkişafı qorumaq üçün yaxşı təhsil almış gənc kadrlar fondundan bəhrələnir. Bir çox sənayenin uğuru və davamlılığı, ali təhsil müəssisələrində təsil alan təşəbbüskar gənclərin imkanlarından asılıdır. Bunu nəzərə alaraq, dünyanın aparıcı universitetləri aparıcı sənaye müəssisələri ilə əməkdaşlıq əlaqələri qururlar. Bu məqalədə ali təhsil sistemində biznes əlaqələrinin yüksəldilməsi və inkişaf yolları müzakirə olunur.

**Açar sözlər**: Ali təhsil, qlobal biznes, karyeranın inkişafı, məşğulluq, tərəfdaşlıq və təhsilin keyfiyyəti.

**UOT:** 334
**DOİ:** 10.54414/IYMZ2312

**Giriş**

Azərbaycan Respublikası prezidentinin təsdiq etdiyi "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda qeyd olunur ki, cəmiyyətin tərəqqisi bütün dövrlərdə bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuş, mövcud tələbat təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur.

**Əsas mətn**

Həmin sənəddə göstərilir ki, BMT XXI əsri "təhsil əsri" elan etmiş və yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında ali təhsilin rolu danılmazdır. Demək olar ki, vahid Avropa Ali Təhsil məkanının yaradılması bugün Azərbaycan ali məktəbləri üçün təhsilin səviyyə və keyfiyyətini diqqətlə nəzərdən keçirmək üçün ciddi səbəbdir. Bu çətin, lakin maraqlı bir yoldur, o, ali məktəblər, təhsil nazirliyi və hökumətin fəaliyyətinin bir çox aspektlərini yenidən dərk etməyi tələb edir. Dünya təhsil təcrübəsində keyfiyyətin təmin olunmasının daha çox üç modeli – İngilis, Fransız və Amerika modelləri diqqəti cəlb edib. İngilis modeli əsasən akademik göstəricilərin universitetdaxili qiymətləndirilməsini, Fransız modeli universitetxarici qiymətləndirilməni, Amerika modeli isə təhsil müəssisəsinin və təhsil proqramlarının müstəqil akkreditasiya orqanları tərəfindən qiymətləndirilməsini nəzərdə tutur [3.s.15-17].

Ali təhsil həmişə iqtisadi inkişafın, işçi qüvvəsinin ixtisasının artırılmasının və innovasiyaların gücləndirilməsinin əsas lokamativi hesab olunur. Sürətlə dəyişən sənaye tələbləri və maliyyələşdirmə modellərinin olması universitetlər və özəl sektorlar arasında əlaqələri hər zaman yenidən qurulmasına dəlalət edir. Hər iki tərəf yeni bacarıq ehtiyaclarını ödəmək və daha güclü kommersiya tərəfdaşlığı qurmaq üçün çox çalışır. Ali təhsil pilləsi bacarıqlı kadr boşluğunu aradan qaldırmaq üçün sənaye tərəfdaşları ilə sıx

əməkdaşlıq edərək təhsil alanlara düzgün şəkildə bacarıqlarından istifadə etməyə köməklik göstərə bilər.

Ali təhsil müəssisələri və sənaye tərəfdaşları arasında möhkəm əlaqələr güclü işçi qüvvəsinin inkişafı proqramlarının qurulması üçün çox vacibdir.

Yerli sənayelərlə güclü əlaqələrin qurulması və davam etdirilməsi ali təhsil müəssisələri üçün uzunmüddətli faydaya malikdir, çünki biz yerli məşğulluq mühitini dərindən başa düşə bilərik. Biznes əlaqələrinin gücləndirilməsi universitetlərdə biznes proqramlarının hazırlanmasına və tələbələrə təhsil müddətini bitirdikdən sonra asan şəkildə işlə təmin olunmasına köməklik göstərə bilər.

Ali təhsil müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlıq əmək bazarına daxil olmaq, tələbələrin peşəkar bacarıq və bacarıqlarını inkişaf etdirmək üçün yaxşı zəmindir. Universitetlər və iqtisadi mühit arasında təhsil tərəfdaşlığının başlanması və inkişafı üçün ilkin şərtlərin konseptual şəkildə müəyyənləşdirilməsi onların düzgün inkişafı üçün vacibdir. Təhsil tərəfdaşlığı universitetin sosial və iqtisadi mühitə və onların işlədiyi kontekstə açıqlığını tənzimləyir.

Son dövrlərdə məzunların əmək bazarına çıxarılması ali təhsil üçün əsas problemlərdən biridir. Avropa Komissiyasının Ali Təhsil üzrə Strategiyasında (2012) gənclərin məşğulluq və peşəkar yerləşdirməni inkişaf etdirmək üçün lazım olan bacarıqlarla təchiz edilməsini təmin etmək üçün universitet təhsilində islahatların aparılması zərurətindən bəhs edilir. İqtisadi artım üçün "Avropa Strategiyası 2020" proqramında Aİ-nın yüksək əmək məşğulluğu, məhsuldarlıq və sosial birliyə nail olmaqla ağıllı, davamlı və inklüziv iqtisadiyyata çevrilmək istədiyini vurğulanır. Bu baxımdan, 2020-ci il üçün konkret hədəflərdən biri 20-64 yaş arasında olan insanlar arasında məşğulluq səviyyəsinin 75%-ə çatmasını nəzərdə tuturdu.

2 iyul 2014-cü il tarixli press-relizdə Avropa Komissiyası iqtisadi siyasətlə bağlı bəzi tövsiyələr vermiş və 2015- 2020-ci illərdə iqtisadi artımın stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması və iş yerlərinin yaradılması ilə bağlı tövsiyələr qeyd etmişdir. Növbəti dövrdə böhranın yaratdığı aktual məsələlərin həllinə deyil, böhrandan sonrakı iqtisadiyyatda dayanıqlı artım və məşğulluq üçün zəruri şəraitin yaradılmasına diqqətin yönəldildiyi pres-relizdə vurğulanmışdır [2].

Fikrimizcə, ali təhsil müəssisələri məzunların məktəbdən fəal həyata keçidini və biznes mühiti ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirməklə əmək bazarına uğurla daxil olmalarını asanlaşdırmaq üçün onların akademik, peşə və sosial bacarıqlarını inkişaf etdirməyə təşəbbüs göstərməli və inkişaf etdirməlidirlər.

Təhsil tərəfdaşlığı universitetin sosial və iqtisadi mühitə və onların işlədiyi kontekstə açıqlığını tənzimləyir. Universitetlər və iqtisadi mühit arasında təhsil tərəfdaşlığı təhsil xidmətlərinin göstərilməsində maraqların bir-birini tamamlaması prinsipinə, cəlb olunanların əməkdaşlıq sinerjisindən nəsə əldə etmələri ideyasına əsaslanmalıdır. Araşdırmalar göstərir ki, universitetlərin fəaliyyəti və işəgötürənlərin rəqabət qabiliyyəti təklif olunan xidmət və məhsulların keyfiyyətindən asılıdır.

Bununla belə, əməkdaşlıq niyyəti tərəfdaşlığın uğuruna zəmanət vermir. Bu, tərəfdaşların fəaliyyətinin və qərarlarının əlaqələndirilməsini, əməkdaşlıq prosesinin keyfiyyətlə idarə olunmasını tələb edir. Tərəfdaşlıqların qurulması tərəflərin bilməli və istifadə etməli olduğu xüsusi bacarıqları, strategiyaları və bilikləri əhatə edən düşünülmüş bir prosesdir. Tərəfdaşlıq əməkdaşlığa və dəyişikliyə, ünsiyyətə və müxtəliflik haqqında məlumatlılığa əsaslanan idarəetmənin qəbulunu nəzərdə tutur.

Universitetlər və biznes mühit arasında tərəfdaşlıq əlaqələri ümumi baxışa, ortaq dəyərlərə və ümumi məqsədlərə əsaslanan yaxşı idarəetməni tələb edir.

Ali təhsil sistemində biznes əlaqələrinin həyata keçirilməsi aşağıdakılardan asılıdır:

- ✓ Təşkilatlar (universitetlər, iqtisadi agentlər) və cəlb olunan şəxslər;
- ✓ Əməkdaşlıq üçün onların motivasiyası;
- ✓ İşə cəlb olunanların və biznes mühitində çalışanların təcrübə səviyyəsi;
- ✓ Hər bir əməkdaşın bilik və bacarığı;
- ✓ Tələb olunan və mövcud olan resurslar;
- ✓ Təşkilatların mədəniyyəti

Universitetlər və biznes arasında tərəfdaşlığa ehtiyac ən vacib araşdırılmalı faktordu. Çünki, "Universitetlərin yeni və innovativ biznesin in-

kişafı üçün regional və yerli şirkətlərlə əməkdaşlıq etməsi lazımdır". Universitetlər və biznes arasında tərəfdaşlığın təsirləri sosial səviyyədə uzunmüddətli perspektivdə hiss olunur: əmək bazarında təklif və tələb arasında daha yaxşı korrelyasiyaya, məzunların bacarıq və seçimlərinə görə fərqləndirilməsi yolu ilə sosial inteqrasiya, məsuliyyətə, əməyə hörmətə və s.

Universitet və biznes mühiti arasında tərəfdaşlığın effektiv olması üçün aşağıda qeyd olunmuş yollar təklif edilir:

✓ Təhsil müddətində işlə təmin olunan tələbələrə köməklik;

✓ Təcrübələrin inkişafı üçün işəgötürənlər tərəfindən ödənilən tələbələr üçün qrantlar;

✓ Tədris təcrübələrinin, korporativ idarəetmə strukturunda olan insanlarla görüşlərin təşkili, tələbələr arasında peşəkar uğur modellərinin təbliği;

✓ İşəgötürənlərlə əməkdaşlıqda olan müəllimlər üçün təlim proqramlarının təşkili və keçirilməsi;

✓ Məzunlar üçün əmək yarmarkalarının təşkili;

✓ Tələbələr üçün məlumat xidmətləri, karyera rəhbərliyi və məsləhətlərin göstərilməsi.

Son on il ərzində biznes kəskin şəkildə dəyişdi. Nəticədə işçi qüvvəsinin bacarıqları və tələbləri də dəyişdi. Bu gün 10 il əvvəl mövcud olmayan biznes sahələri mövcuddur misal olaraq var – data analitiki, sosial media meneceri, proqram tərtibatçısı - və s. Bütün bunlar ali təhsil sahəsində atılan ciddi addımların, islahatların nəticəsidir. Texnoloji innovasiyaların sürəti və sənaye tələbləri ali təhsilin uyğunlaşma qabiliyyətindən daha sürətlə irəliləyir. Tələbələri hazırlamaq üçün köhnəlmiş modellərdən istifadə edərkən onlardan effektiv və uğurlu işçilər olmasını necə gözləyə bilərik?

IBM Biznes Dəyəri İnstitutunda bir qrup akademik və sənaye liderləri arasında ali təhsilin hazırkı vəziyyəti ilə bağlı sorğu keçirilmişdir. Müəyyən edilmişdir ki, respondentlərin 51%-i hazırkı ali təhsil sisteminin tələbələrin tələbatını, 60%-ə yaxını isə sənayenin tələbatını ödəyə bilmədiyi qənaətindədir. Sənaye və akademik liderlər, işçi qüvvəsinin uğuru üçün lazım olan bacarıqların, təhlil və problem həll etmə, əməkdaşlıq və komanda işi, biznes kontekstində ünsiyyət, çeviklik, çeviklik və uyğunlaşma kimi, məzun olan tələbələrdə çatışmayan eyni bacarıqların olduğunu ortaya qoydu. İşə götürənlərin 71%-i qeyd edib ki, ali təhsil müəssisələrindən işə qəbul zamanı kifayət qədər praktiki təcrübəyə malik namizədlərin tapılması ən böyük hal-hazırda problemdir. Bugünkü ali təhsil sisteminin dəyərini artırmaq və ən əsası tələbələri dərsdən sonra həyata hazırlamağa kömək etmək təhsilə daha praktik və tətbiqi yanaşmanı mənimsəmək lazımdır. Sorğuda iştirak edənlərin əksəriyyəti təcrübəyə əsaslanan və praktiki öyrənmənin təmin edilməsinin cari performans boşluqlarını aradan qaldırmaq üçün vacib olduğu ilə razılaşırlar [1, s.45-48].

Bizneslə əlaqələr genişləndikcə yeni istiqamətlərin meydana gəlməsi, yeni təşkilati strukturların yaranması və s. universitetlərin idarə edilməsində çətinliklər yaradır. Beynəlxalq təcrübədə belə çətinlikləri aradan qaldırmaq üçün biznes nümayəndələri universitetin idarəçiliyində müxtəlif formalarda iştirak edir və hətta bir çox hallarda marketinq strukturunun rəhbəri təyin olunur. Eyni qayda ilə universitetlərin də nümayəndələri biznes strukturlarının rəhbərliyində iştirak edirlər. Bundan başqa, universitetlərin biznes strukturları ilə birbaşa və ya mövcud şəbəkə (sənaye-ticarət palatası, agentliklər, assosiasiyalar və s.) vasitəsilə əlaqələrinin qurulması təcrübəsi də mövcuddur.

Çox təəssüf ki, ölkəmizdə böyük biznesin kadr hazırlığı sahəsində iştirakı, onun maliyyələşdirilməsi sahəsində fəaliyyəti və təhsil sistemi ilə əlaqələri hələlik arzu olunan səviyyədə deyil. Bunun başlıca səbəbi biznesin təhsil sahəsinə kütləvi cəlb edilməsinin normativ-hüquqi bazasının demək olar ki, yaradılmamasıdır. Eyni zamanda, ali təhsildə tətbiq olunan müxtəlif ixtisasları əhatə edən proqramların keyfiyyətinin qiymətləndirilməsində peşəkar birliklərin və biznesin iştirakı yox dərəcəsindədir. Halbuki bu cür əlaqələrin səmərəliyinin nümunələri bir çox inkişaf etmiş ölkələrdə mövcuddur. O cümlədən, burada dövlətin tənzimləyici addımları təhsil xərclərinin ödənilməsində öz vəsaitləri ilə iştirak edən təsisçilərin və bu vəsaitin alıcılarına vergi güzəştlərinin verilməsi və həmin prosesin şəffaf nəzarət mexanizminin qurulması çox əhəmiyyətli olardı. Eləcə də biznes strukturlarının təhsil proqramla-

rının təkmilləşdirilməsində, ixtisas və ixtisaslaşma istiqamətlərinin müəyyən olunmasında təhsilin keyfiyyətinin qiymətləndirilməsi sahəsində iştirakının təmin olunması heç də onların maliyyə vəsaitləri ilə iştiraklarından az əhəmiyyət daşımır.

Artıq aparıcı şirkətlər və biznes strukturları iqtisadi inkişafın ləngiməsində yüksək peşə hazırlığına malik işçi qüvvəsi çatışmazlığının təsirini hiss edirlər. Digər tərəfdən məlumdur ki, cəmiyyətdə gəlirlərin qeyri-bərabər paylanması nəticəsində əhalinin əksər hissəsi müvafiq təhsil xərclərini ödəmək imkanında olmur ki, bu da insan kapitalına investisiya qoyuluşunu və onunla birlikdə iqtisadi artım tempini aşağı salır. Eyni zamanda, ölkədə mövcud maliyyə-kredit sistemi, bank sektoru və girov mexanizmi istər normativ-hüquqi baza və istərsə də təşkilati baxımından əhalinin istədiyi təhsil xərclərini təmin etmək üçün kredit almaq imkanını məhdudlaşdırır.

**Nəticə:**

Biznes mühitinin ali təhsildə inkişaf olunması üçün bəzi inkişaf istiqamətlərini tövsiyə olunur:

- Universitetlər və biznes qurumları arasında tərəfdaşlığın müxtəlif formalarının inkişafı;
- Ünsiyyəti, əməkdaşlığı, tərəfdaşlığı asanlaşdırmaq üçün müəllimlərin təlimi;
- Universitetlərdə tərəfdaşlıq məsələsinə aid məlumatların daha yaxşı yayılması;
- Tərəfdaşlığı və iştirakı təşviq edən tənzimləyici bazanı təşviq etmək;
- Akademik və işəgötürənlər arasında müsbət təcrübələrin yayılması.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Smart, J.C. (2009), Higher education: Handbook of theory and research, volume XXIV. Memphis: Springer Science
2. Higher Education in India: Issues, Concerns and New Directions http://www.ugc.ac.in/pub/heindia.pdf
3. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyun2009/83969.htm
4. The role of universities in Innovation systems and regional economies, Expert meeting on The future of academic research, Vienna University of Economics and Business Administration, 19-20 October 2006
5. https://www.azerbaijan-news.az/view-169356/tehsilin-inkisaf-strategiyasi-nailiyyet-ler-ve-esas-hedefler

**Гюнай Октая кызы АЛИЕВА,**
**Айдан Ильхам кызы АСЛАНЗАДЕ**

# ПУТИ РАСШИРЕНИЯ ДЕЛОВЫХ СВЯЗЕЙ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

**Резюме**

Образование, как мы знаем, жизненно важно для развития и расширения прав и возможностей человеческих ресурсов на этапах развития нации. Высшее образование, включающее менеджмент, инженерное дело, медицину и т. д. в любой образовательной системе, играет важную роль в передаче знаний, ценностей и развитии навыков. Предприятия извлекают выгоду из хорошо образованного молодежного резерва для удовлетворения своих потребностей в рабочей силе и поддержания стабильности и роста на рынке труда. Успех и устойчивость многих отраслей зависит от способностей предприимчивой молодежи в высших учебных заведениях. Учитывая это, ведущие университеты мира устанавливают отношения сотрудничества с ведущими промышленными предприятиями. В данной статье рассматриваются пути совершенствования и развития деловых отношений в системе высшего образования.

**Ключевые слова:** Высшее образование, глобальный бизнес, карьерный рост, трудоустройство, партнерство и качество образования.

**Gunay Oktay ALIYEVA**
**Aydan Ilham ASLANZADE**

## WAYS TO ENHANCE BUSINESS CONNECTIONS IN THE HIGHER EDUCATION SYSTEM

**Summary**

Education, as we know, is vital for the development and empowerment of human resources in the developmental stages of a nation. Higher education, which includes management, engineering, medicine, etc., in any educational system, plays a major role in imparting knowledge, values, and developing skills. Businesses benefit from a well-educated youth pool to meet their workforce needs and maintain stability and growth in the labor market. The success and sustainability of many industries depends on the capabilities of enterprising young people in higher education institutions. With this in mind, the world's leading universities establish cooperative relations with leading industrial enterprises. This article discusses ways of improving and developing business relations in the higher education system.

**Keywords:** Higher education, global business, career development, employment, partnership and quality of education.

**Daxil olub:** 19.08.2023